AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

1 iyun 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 21 (3635)




# İSRAİL PREZİDENTİ ÖLKƏMİZDƏ RƏSMİ SƏFƏRDƏ OLUB

## *Dövlətlərarası görüşdə regional məsələlər müzakirə edilib*

Mayın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu və birinci xanım Mixal Hersoqu qarşılayıblar, fəxri qarovul dəstəsinin rəisi İsrail Prezidentinə raport verib.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçərək əsgərləri salamlayıb, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyətinin üzvləri İsrail Prezidenti İsxak Hersoqa və xanımı Mixal Hersoqa, İsrail nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olunublar.

Sonra Azərbaycanla İsrail prezidentləri arasında təkbətək görüş keçirilib. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər arasında baş tutan geniş tərkibli görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev səfərin ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişafına təkan verəcəyini bildirib. Regional məsələlərlə bağlı İsrail Prezidenti ilə çox yaxşı müzakirələr apardıqlarını deyən ölkəmizin rəhbəri ticarət, enerji, təhlükəsizlik sahələri üzrə işlərin görüldüyünü, lakin qarşılıqlı işbirliyi üçün daha böyük potensialın mövcud olduğunu vurğulayıb.



İsrail Prezidenti İsxak Hersoq da ölkələr arasındakı tərəfdaşlıq, dostluq münasibətlərindən danışıb: "İlk növbədə, hesab edirəm ki, bu görüş elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk".

Geniş tərkibli görüşün sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı" imzalanıb.

Həmin gün dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev bu il İsraildə Azərbaycan səfirliyinin açılmasının ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini daha yüksək səviyyəyə qaldıracağına, eyni zamanda yeni geniş imkanlar yaradacağına əminliyini ifadə edib. İsraillə ticarət dövriyyəmizin 1,7 milyard ABŞ dollarından çox olduğunu deyən dövlətimizin başçısı növbəti illərdə planlaşdırılan birgə layihələr nəticəsində ticarət dövriyyəsinin artacağını diqqətə çatdırıb: "Biz, həmçinin irriqasiya və kənd təsərrüfatı sahəsində planlarımızı və artıq görülmüş işləri müzakirə etdik. İsrailin bu sahədə böyük nailiyyətlərindən bizim xəbərimiz var və biz kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün bu müsbət təcrübədən istifadə etmək və ixrac bazarımızı şaxələndirmək istəyirik".

Görüş zamanı kibertəhlükəsizlik sahəsində də qarşılıqlı müzakirələr aparılıb.

İsrail Prezidenti İsxak Hersoq çıxışında Azərbaycanın dünyada və regionda böyük təsirə malik olduğunu deyib, Azərbaycanın Avropanın enerji sektoruna, ümumilikdə regiona, Asiyaya təsiri barədə danışıb.

Qonaqpərvərliyə, dəvətə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirən İsrailin dövlət başçısı Prezident İlham Əliyevi və birinci xanımı İsrailə dövlət səfərinə dəvət edib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və birinci xanım Mixal Hersoqun şərəfinə rəsmi lanç verilib.

# QÜRUR DOĞURAN XİDMƏT



Mayın 30-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmanın son yaş həddi ilə bağlı DİN-in İdman Cəmiyyətinin rəisi, polis polkovniki Zemfira Meftahətdinovanı qəbul edib.

Yolasalma mərasimində general-polkovnik Vilayət Eyvazov onun dövlətçiliyə, peşə borcuna sədaqətini, insani keyfiyyətlərini xüsusi vurğulayıb, İdman Cəmiyyətinin rəisi kimi qüsursuz fəaliyyətini yüksək qiymətləndirib.

Sonda nazir Vilayət Eyvazov uzun illər qüsursuz xidmətlərinə görə təltif olunduğu DİN-in "Fəxri fərman"ını Z.Meftahətdinovaya təqdim edib.

Qeyd edək ki, Z.Meftahətdinova bundan sonra fəaliyyətini Azərbaycan Atıcılıq Federasiyasında davam etdirəcək.

# ABŞ PREZİDENTİNDƏN TƏBRİK MƏKTUBU

Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.

ABŞ prezidenti Bakıda Beynəlxalq Xəzər Neft-Qaz Sərgisini keçirilməsi ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdırıb. O, 30 ildən artıq bir dövrdə Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında transmilli təhlükələrlə mübarizədə inklüziv iqtisadi inkişafa qədər möhkəm tərəfdaşlıq yarandığını bildirib.

Qeyd olunub ki, bu tədbir ölkələrimizin təhlükəsiz və təmiz enerji ilə bağlı gələcəyə birgə sadiqliyini vurğulayır. Azərbaycan bu səylərin həyata keçirilməsində vacib rol oynayır. Azərbaycan təhlükəsiz enerji təchizatına olan tələbatın ödənilməsinə yardım etməkdədir – buraya Cənub Qaz Dəhlizi daxil olmaqla, Orta Dəhlizin inkişafı və enerji çevikliyini gücləndirən enerjinin şaxələndirilməsinin artırılması daxildir. Qlobal iqlim məqsədlərinə nail olmaq üçün Azərbaycanın səyləri, o cümlədən bərpaolunan enerjinin inkişafının artırılmasına və enerji səmərəliliyinin gücləndirilməsinə dair təşəbbüslər sevindiricidir:

"Bu tədbirlərin, habelə qanunun aliliyinin təşviqinin və Azərbaycan xalqı üçün imkanların artırılmasına yönəlmiş islahatların həyata keçirildiyi dönəmdə ABŞ yanınızda olacaqdır. Bununla yanaşı, biz gələcək nəsillər üçün Cənubi Qafqazda sülhün və rifahın təşviqinə kömək göstərəcək ədalətli və dayanıqlı sülhü dəstəkləməyə davam edəcəyik.

Gələn illər ərzində davamlı əməkdaşlığımızı səmimiyyətlə arzulayıram".

***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il iyun ayının 13-də İsmayıllı Rayon Polis Şöbəsinin inzibati binasında Ağsu, İsmayıllı, Göyçay, Qobustan, Şamaxı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 12.06.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***



# POLİSLƏRİN TƏHSİL OCAĞI...

Düz on il əvvəl dinləyicisi olduğum Arif Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin qapısından içəri keçirəm.

Qeyri-ixtiyari üst-başıma əl gəzdirib geyimimin səliqəli, "standartlara" cavab verdiyindən əmin olmaq istəyirəm. Mənim kimi polislə tanışlığı bu məktəbdən başlayanlar razılaşar ki, buranın elə birinci gündən əməkdaşa öyrətdiyi, özü də heç zaman unutmayacağı əsas dərs nizam-intizamdır...







Bu təhsil ocağı, obrazlı desək, odu-alovu ilə dəmirə şəkil verən, formaya salan dəmirçi ocağının analoqudur, bir növ. Həqiqi mənada isə gənc polisin andiçmə yeri, Polis Andının mətnini imzaladığı Vətənə sədaqətin istinad məkanı, məktəbidir!

Təhsil ocağının geniş, səliqəli və səssiz həyətindən keçib **rəis, polis polkovniki Mirzeynalabdin Seyidovun** xidməti otağına çatıram. Orada məktəbin fəaliyyəti barədə söhbətimizə **tədris işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Qubar Qurbanovun və tədris şöbəsinin rəisi, polis polkovnik-leytenantı Murad Səlimovun** da qoşulacaqlarını öyrənirəm. Elə də olur.

Öncə müsahibim M.Seyidov gənc həmkarlarımızın nəzəri-praktiki tədrislərini tamamlamaları üçün qarşıya qoyulan vəzifələrdən bəhs edir. Deyir, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişi ilə məktəbin müəllim heyəti dinləyicilərə sıra, atəş, fiziki hazırlıq, xüsusi vasitələrin tətbiq etmə dərslərinin keçirilməsinə xüsusi diqqət ayırır.

Son dövrlərdə daxili işlər orqanlarında xidmətə təşviq etmə ilə bağlı yerlərdə gənclərlə keçirilən görüşləri xatırladanda, rəis müavini Q.Qurbanov dedi ki, bu, dinləyici sayında nəzərəçarpan artıma səbəb olub.





Vətən müharibəsi iştirakçılarının polis orqanlarında xidmətə qəbul edilməsindən danışan şöbə rəisi M.Səlimovun sözlərinə görə, döyüşlərdə iştirak edən, müharibənin əzabəziyyətini görmüş gənc əməkdaşların ekstremal vəziyyətdən çıxmaq, silahdan istifadə, silahla təhlükəsiz davranma bacarıqları var. Bu mənada, onlar məktəbdə daha tez xidmətə uyğunlaşırlar. Ancaq tədris müddətində digər dinləyicilərə də silahla davranış qaydaları və hədəfə dəqiq atəş açmaq öyrədildiyinə görə yekun olaraq, imtahanlarda uğurlu nəticə əldə edilir.

Şöbə rəisi əlavə edir ki, sıravi heyət arasında ali təhsillilərin sayı da artıb. Bu, əsasən dərslərin öyrədilməsinə müsbət təsir edir. Ancaq orta təhsil almış polis əməkdaşlarının imtahanlarının nəticələri onların da tədris proqramını tam mənimsəyə bildiklərini ortaya qoyur. Elə bu yaxınlarda ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı keçirilən bilik yarışmasında ikinci və üçüncü yerləri tutanlar orta təhsilli dinləyicilər olub.

Məktəb rəisi M.Seyidov ulu öndərin yubileyi ilə əlaqədar ilin sonunadək anım tədbirlərinin davam etdiriləcəyini qeyd etdi.

Bu arada məktəbin həyətindəki bayaqkı səssizliyi dinləyiciləri sıra hazırlığı və kütləvi iğtişaşların qarşısının alınması təliminə çıxaran müəllimlərin komandaları əvəzləyir. Söhbətimizin məcrası da nəzəri-praktiki məşğələlərə yönəlir.

Məktəbdə post-patrul və daxili xidmətdə xidmət edəcək polislər üçün tədris müddəti 3 ay, mühafizə polisi üçün 45 gün, ixtisasartırmaya gələnlər üçün isə 2 həftə sürür. Bu təqvim daxilində gənc polislərin bilik və bacarıqlarının artırılması, zamanın tələbinə uyğun hazırlanmaları üçün fiziki, sıra və atəş hazırlıqları ilə bağlı dərslərə əlavə saatlar yazılıb, mövzular artırılıb. Cinayətkarın, hüquq pozan şəxslərin avtomobillərdən çıxarılması, avtomobilə əyləşdirilməsi kimi mövzular həm film şəklində, həm də praktiki təlimlərlə, simuliyasiya yolu ilə göstərilir, izah edilir. Dinləyicilərə polisin fəaliyyətini tənzimləyən normativ aktlar, qanunvericilik, insan və vətəndaş hüquqları, azadlıqları, hüquqi biliklər öyrədilir. Eyni zamanda, DİO əməkdaşlarının Etik Davranış Kodeksinin tələblərinə ayrıca diqqət yetirilir.

Dinləyicidən, təhsilalandan söhbət gedəndə müəllim heyətindən bəhs etməsəydik, olmazdı.

Məktəbin rəisi M.Seyidov deyir ki, müəllim heyəti peşəkar, təcrübəli zabitlərdən, eləcə də təqaüddə olan, idarələrdə, bölmələrdə, cinayət axtarış, istintaq orqanlarında, inzibati fəaliyyət sahəsində işləmiş polis əməkdaşlarından ibarətdir. Polis Akademiyasının professor-müəllim heyətindən də müəllimlər kurslara dəvət olunurlar. Daxili Təhqiqatlar, Baş Kadrlar və Tibb idarələrindən əməkdaşlar gəlib öz sahələri üzrə əlavə olaraq hər kursda dərslər keçirlər.

O da xüsusilə qeyd edildi ki, hər kurs gənc polislər bir həftə ərzində Daxili Qoşunların Təlim Mərkəzində səhra şəraitində təlimlərə cəlb edilirlər. Qoşunların hərbi hissələrindən dəvət olunan peşəkar zabit və gizirlərin rəhbərliyi altında baş tutan bu təlimlər gənc polisləri hər bir ağır sınağa hazırlayır.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Polis ekologiyanın da keşiyindədir

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena və yerin təkindən istifadə qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.

Mayın 15-dən 22-dək olan müddətdə Zaqatala, Balakən, Qax, Şəki, Oğuz şəhər və rayonları ərazilərində keçirilən belə tədbirlər zamanı sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi, su obyektlərinin mühafizəsi qaydalarının pozulması, yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların tələblərinin pozulması faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi), 264.0.1-ci (su obyektlərinin mühafizəsi qaydalarının pozulması), 243.0.1-ci (yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərinin pozulması) maddələrinin tələblərini pozduqlarına görə Oğuz rayonunda Sincan və Muxas, Şəki rayonunda Qoxmuq, Qax rayonunda Güllük, Qum və Ləkit, Balakən rayonunda Qullar, Zaqatala rayonunda Yuxarı Tala və Suvagil kənd bələdiyyələrinin sədrləri, həmçinin 10 fiziki şəxs barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

*N.Cavadov,*
*polis mayoru*




# ƏMƏKDAŞLARIMIZ BELARUS RESPUBLİKASINDA OLUB

Minsk şəhərində Belarus Respublikasının Daxili İşlər Nazirliyinin Akademiyasının 65 illik yubileyi ilə əlaqədar "Cinayətkarlıqla mübarizə və hüquq mühafizə orqanlarının kadr hazırlığı problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbirdə Rusiya Federasiyası, Tacikistan, Özbəkistan və Azərbaycan Respublikası DİN-in Polis Akademiyalarının nümayəndə heyətləri iştirak edib.

Tədbiri giriş sözü ilə açan daxili işlər nazirinin müavini, milis general-mayoru Dmitri Korzyuk 70-dən çox ali təhsil müəssisəsinin və müxtəlif təşkilatların təmsilçilərinə yubileyə qatıldıqları üçün minnətdarlığını ifadə edib, hüquq mühafizə orqanlarının işinin mürəkkəbləşdiyi bir dövrdə konstruktiv tərəfdaşlığın yaradılması üçün bu səpgili görüşlərin keçirilməsinin zəruri olduğunu vurğulayıb.

Son illər ərzində Akademiyanın iştirak etdiyi elmi-tədqiqat layihələrindən və dövlət proqramlarından söz açan Belarusiya Respublikasının DİN-in Akademiyasının rəisi, milis general-mayoru Aleksandr Vasilyev cinayətkarlıqla mübarizə üçün yeni praktik üsulların formalaşdırılması, mütəxəssislərin hazırlanması məsələsinə toxunub, bu sahədə qarşılıqlı fəaliyyətin səmərəliliyini diqqətə çatdırıb.

Sonra mövzu üzrə çıxış və təqdimatlar dinlənilib, nümayəndə heyətləri qarşıda duran vəzifələrin həllinə təkan verəcək təcrübələrini bölüşüblər.

Həmçinin, konfrans çərçivəsində fəlsəfə doktoru və dosent elmi adlarını almış milis əməkdaşlarına diplomlar təqdim edilib.

Plenar iclasın yekununda iştirakçılar hüquq mühafizə sahəsində qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin artırılması barədə razılığa gəliblər.

*"Polis"*

# Görüşdə məişət zorakılığı müzakirə edilib

Bu günlərdə Baş İctimai Təhlükəsizlik İdarəsində Avropa Şurasının Gender Bərabərliyi Bölümünün əməkdaşlıq şöbəsinin müdiri Marta Beserra ilə Şərq Tərəfdaşlığı ölkələri üçün icra edilən Yaxşı İdarəçilik Naminə Tərəfdaşlıq Proqramı (PGGIII) çərçivəsində görüş keçirilib.

Görüşdə "Azərbaycanda qadınlara qarşı zorakılıq, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" adlı yeni layihə müzakirə olunub, onun icrasına cəlb olunmuş tərəfdaşlarla səmərəli əməkdaşlığın və əlaqələndirmənin təmin edilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Sərdar Səfərov Azərbaycanda ailə münaqişələrinin, məişət zorakılığının qarşısının alınması üçün görülən işlər barədə məlumat verib, sözügedən mövzu ilə bağlı Nazirliyin "102" Xidməti-zəng Mərkəzinə, elektron poçt ünvanına, sosial şəbəkə hesablarına və ərazi polis orqanlarına daxil olmuş müraciətlərin xüsusi həssaslıqla araşdırıldığını M.Besseranın diqqətinə çatdırıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## BİZƏ YAZIRLAR...

**Paytaxt sakini Məryəm Ağayeva** mobil telefonunun tapılmasında göstərdikləri köməkliyə görə Suraxanı RPİ 32-ci Polis Bölməsinin, Fidan Həsənova isə Metropolitendə Polis İdarəsinin əməkdaşlarına təşəkkürlərini bildirirlər.

**Məhəmməd Bayramzadə, Samirə Mustafayeva, Bəxtiyar Sadıqov və Emil Qənbərov** onlara dəymiş maddi ziyanın tam şəkildə ödətdirilməsində göstərdikləri köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlıqlarını ifadə edirlər.

44 günlük Vətən müharibəsi iştirakçısı **Rəşad Borcəliyev, Rövşən Göyüşov** problemlərinin həllində gösrətdikləri köməkliyə görə Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlıqlarını ifadə edirlər.

**Seymur Əliyev** daxili işlər naziri tərəfindən Cəlilabadda keçirilən vətəndaş qəbulunda olduqdan sonra müraciətinin tez bir zamanda həllini tapdığını yazır.

**Vətəndaş Qəmbər Yusubov** baş vermiş oğurluq hadisəsi ilə bağlı müraciətinə Yasamal



Rayon Polis İdarəsinin əməkdaşlarının operativ yanaşmasını yüksək qiymətləndirir, DİN rəhbərliyinə təşəkkürünü bildirir.

**Bakı şəhər sakini Nizami Cəfərov** məktubunda respublika ərazisində, o cümlədən paytaxtın Sabunçu rayonu ərazisində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində aparılan qətiyyətli mübarizə tədbirlərinə görə DİN rəhbərliyinə və Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir, çətin və şərəfli xidmətlərində uğurlar arzulayır.

**Bakı şəhər sakini Elçin İsmayılov** məktubunda müraciəti ilə bağlı Baş Dövlət Yol Polisi İdarəsinin "Siqnal" İxtisaslaşdırılmış Layihə-İstehsalat İdarəsində qəbul edildiyini, nəzakətlə qarşılanaraq dinlənildiyini və müraciətinin qısa müddətdə müsbət həll olunduğunu qeyd edir. O, müraciətinə diqqətlə yanaşılmasına, xoş rəftara və göstərilən xidmətə görə DİN rəhbərliyinə və "Siqnal" İLİİ-nin əməkdaşlarına təşəkkürünü bildirir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Uşaqlarla görüş keçirilib







Sabunçu rayonundakı 4 nömrəli tam orta məktəbdə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin və Sabunçu RPİ-nin Dövlət Yol Polisi Şöbəsinin təşkilatçılığı ilə "Uşaqlara yol hərəkəti qaydalarını necə öyrətməli?" mövzusunda intellektual yarış keçirilib.

Uşaqlar arasında yol hərəkəti təhlükəsizliyinin təbliği və yol mədəniyyətinin formalaşdırılması məqsədilə keçirilən tədbirdə BŞBPİ Dövlət Yol Polisi İdarəsinin hərəkətin təhlükəsizliyinin təşkili və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis kapitanı Pərvanə Muradova, polis serjantı Elnur Mahmudov və Sabunçu RPİ-nin DYPŞ-nin İnzibati təcrübə üzrə baş inspektoru, polis mayoru Elmar Əbilov, məktəbin müəllim heyəti və uşaqlar iştirak ediblər.

Tədbirin təşkilatçıları təhsil ocaqlarının ətrafında baş verən yol-nəqliyyat hadisələri barədə danışıb, uşaqlara yol hərəkəti təhlükəsizliyi ilə bağlı vacib tövsiyələr veriblər.

# Əlbəyaxa döyüş üzrə seminar



**DİN-in Polis Akademiyasında "Əl və ayaq zərbələrinin təkmilləşdirilməsi" mövzusunda şərq əlbəyaxa döyüş idman növü üzrə seminar təşkil edilib.**

Seminardə Akademiyanın komandir heyəti və kursantlar iştirak edib.

Kursantlar arasında fiziki hazırlıq səviyyəsinin, sağlam həyat təzinin, eyni zamanda idmana motivasiyanın artırılması məqsədilə təşkil edilən məşğələyə təlimatçı qismində "Karatenin qara brilliantı", 5 qat dünya, 11 qat Avropa çempionu, Tokio-2020 Olimpiya oyunlarının gümüş mükafatçısı, ABŞ-da keçirilən Karate Combat turnirinin qalibi Rafael Ağayev dəvət edilib.





Akademiyanın fiziki hazırlıq kafedrasının müəllimi, polis baş leytenantı Hikmət Alışovun qəzetimizə verdiyi məlumata görə, R.Ağayev seminar prosesində kursantlara əl və ayaq ilə vurulan zərbələrinin qarşısını almaq, özünü düzgün qorumaq təcrübəsini bölüşüb.

Seminarda II və III kursun kursantları Orxan Rəcəbli, Azər Tapdıqlı və Malik Həsənov R.Ağayevin diqqətini çəkib, gələcəkdə onların karate üzrə keçiriləcək yarışlara dəvət olunacağı qeyd olunub.

Sonda Akademiya rəisinin xidmət üzrə müavini, polis polkovniki İlyas İsayev və karatenin canlı əfsanəsi Rafael Ağayev tərəfindən seminar məşğələdə iştirak edən kursantlara diplomlar təqdim edilib .

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Jurnalımız artıq oxucuların ixtiyarındadır




DİN-in "Asayişin keşiyində" jurnalının builki ilk nömrəsi çap olunub.

2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar jurnalımız, əsasən, ulu öndərin həyat və siyasi fəaliyyətinə, xalqımıza bağışladığı ömür yoluna həsr edilib. Dərgidə yer alan ümummilli liderin 1999-cu ildə "Azadlıq" radiosunun rus redaksiyasına verdiyi müsahibədə oxucularımız ulu öndərin öz dilindən səsləndirilən tarixi faktlara bir daha nəzər yetirə bilərlər.

Prezident İlham Əliyevin yeni Qarabağ strategiyası, müvafiq sərəncamları, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun yerlərdə vətəndaşlarla keçirdiyi görüşlər, Nazirlikdəki tədbirlər, eləcə də Vətən müharibəsi qazilərinin döyüş yolu və digər mövzular üzrə publisistik yazılar, maraqlı faktlar dərc edilib.

Həmişə nəfis tərtibatı ilə seçilən jurnalın bu sayı da zəngin illüstrasiyası ilə diqqət çəkir.

# Bilmək vacib, əməl etmək mütləqdir

Polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ Rayon Polis şöbələrinin və DİN-in BMİ-nin şəxsi heyətinin iştirakı ilə seminarlar təşkil edilib.

Daxili İşlər Nazirliyinin "2022-2023-cü illərdə daxili işlər orqanlarında ideoloji işin aparılması üzrəTədbirlər Planı"nın icrası ilə bağlı keçirilən məşğələlərdə DİN-in Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı Firdovsi Nəsirov və baş inspektor, polis polkovniki Laçın Paşayev mühazirə ilə çıxış ediblər.






Çıxışlarda "Heydər Əliyev İli" ilə bağlı daxili işlər orqanlarını əhatə edən tədbirlər, korrupsiya hallarına qarşı mübarizə məsələləri, eləcə də Etik Davranış Kodeksinin tələbləri əməkdaşların diqqətinə çatdırılıb. Həmçinin xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, eləcə də cəmiyyətdə qəbul olunmuş mənəvi-əxlaqi və mədəni davranış, ailə-məişət normalarına riayət edilməsinin vacibliyi vurğulanıb.

Görüşlər zamanı ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyəti ilə bağlı məlumatlara da xüsusi yer ayrılıb, "Heydər Əliyev və 44 günlük Zəfər yolu" adlı sənədli film nümayiş etdirilib.

*"Polis"*

# Gənclərin arzusu gerçəkləşir

Gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi məqsədilə Qobustan rayonunda həqiqi hərbi xidmətini başa vurmuş gənclərlə görüş keçirilib. Görüş DİN Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları tərəfindən təşkil edilib.

Tədbirdə dövlətçiliyimizin möhkəmlənməsində, ölkəmizdə əmin-amanlığın bərqərar olmasında polisin roluna diqqət çəkən natiqlər, həmçinin torpaqlarımızın müdafiəsində daxili işlər orqanları əməkdaşlarının göstərdiyi şücaətləri xüsusi vurğulayıblar.

Qeyd olunub ki, içdiyi anda daim sadiqliyini nümayiş etdirən polis öz şərəfli missiyasını bütün tarixi dövrlərdə layiqincə yerinə yetirib.

Təşkilatçılar tərəfindən görüşə dəvət olunan gənclərə daxili işlər orqanlarına xidmətə qəbul qaydaları, eləcə də DİN sistemində təhsil almaq imkanları barədə ətraflı məlumat verilib.

Görüşdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb, onlara bukletlər paylanılıb.




**Yasamal RPİ 28-ci Polis Bölməsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində mayın 24-də Gəncə şəhər sakini olan bir nəfərin içərisində 1028 manatı, bank kartları, sənəd və əşyaları olan cüzdanını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Azayev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Suraxanı rayonunun Hövsan qəsəbəsi ərazisində yerləşən bir anbardan 30.000 manat dəyərində ərzaq məhsulları və məişət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olub.

**Suraxanı RPİ 30-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən qəsəbə sakini İ.Abbasov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**İsmayıllı Rayon Polis Şöbəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri tədbir nəticəsində mayın 30-da İsmayıllı kənd sakini X.Ziliyevin idarə etdiyi "Ford Transit" markalı avtomobilə baxış zamanı oradan 1 ton 840 kiloqrama yaxın at əti aşkar olunaraq götürülüb. 10 rəst ata aid ət müvafiq nümunələr götürülməsi üçün Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşlarına təhvil verilib.

◆◆◆

**Lənkəran Şəhər Rayon Polis Şöbəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Balıqçılar qəsəbə sakini S.Ağakişiyevdən heroin, metamfetamin, habelə yaşadığı evə baxış zamanı nömrəsi silinmiş "AK-74" markalı avtomat, 1 ədəd patron darağı və 10 ədəd patron aşkar olunaraq götürülüb.

◆◆◆

**Şirvan Şəhər Polis Şöbəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər ərazisində yerləşən marketlərin birində quraşdırılmış ödəmə terminalından 5694 manat oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş C.İsmayılov saxlanılıb.

# "ASAN xidmət" mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə

Daxili İşlər Nazirliyi Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi "ASAN xidmət" mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüterdə işləmək bacarıqları olan, məsuliyyətli, diqqətli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2023-cü ilin may ayının 1-dən 31-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Müraciət etmiş şəxslər müsabiqədə iştirak etmək üçün dəvət edilərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ***Şəxsiyyət vəsiqəsi;***
- ***Ali təhsil haqqında diplom;***
- ***Əmək kitabçası (olanlar üçün);***

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**şəhər: (012) 590-80-63, (012) 590-80-93**
**daxili: 80-63, 80-93**




## Mükafatlı sual rubrikası

**Bu oyunun adı Xalq yazıçısı İlyas Əfəndiyevin əsərlərinin birində çəkilir. Ona tərəkəmələrin "dava"sı da deyirlər. Söhbət hansı əsərdən və oyundan gedir?**

**Vatsap: +99455-875-16-39**

## Gəncə düzündəki "Lalələr"



Rubrikamızın son sualı ötən əsrin əvvəlində bəstələnmiş "Lalələr" mahnısı ilə bağlı idi. Bu mahnı ilə 1918-ci ildə Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gələn və şəhəri erməni-bolşevik silahlılarından təmizləyən türk əsgərləri vəsf edilirdi.

Ehtimal olunur ki, minlərlə türk əsgərinin başlarında fəs, fəsin ucunda isə saçaqlar var idi. Şair də fəsləri laləyə bənzətdiyinə görə sonradan dildən-dilə gəzən, ölməzlik qazanan mahnının sözlərini qələmə alıb.

Sualda sözügedən mahnının adı soruşulmuşdu. Doğru cavabı Ağsu RPŞ-nin baş təhqiqatçısı, polis mayoru Vüsal Hüseynov vatsap nömrəmizə ilk göndərən oxucumuzdur.

Həmkarımızı təbrik edir, xidmətində uğurlar arzulayırıq.



# XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1-ci mövsüm üzrə 01 iyun - 15 sentyabr 2023-cü il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

Qeyd: **1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

**3.** Bir günlük xərc tək polis əməkdaşı üçün 36,25 manat (iki nəfərlik nömrəni tək tutduqda 57,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 108,75 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 87,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 145,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 175,00 manat təşkil edir.

**4.** 6 yaşadək uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, su attraksionundan, trenajorlardan, mini futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+994 12) 554-47-60;**
**Mobil telefon: (+994 50) 291-15-51; (+994 55) 291-15-51;**
**Faks: (+994 12) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 01 iyun - 15 sentyabr 2023-cü il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 290 manat, bir nəfər tək qaldıqda 230 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 36,25 manat | 57,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 72,50 manat | 115 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 145 manat | 230 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |



## Yarışlar davam edir



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlərin davamı olaraq, habelə daxili işlər orqanları əməkdaşlarının silahsız özünümüdafiə və əlbəyaxa döyüş bacarıqlarının təkmilləşdirilməsi məqsədilə daha bir yarış Biləsuvar Rayon Polis Şöbəsinin şəxsi heyəti arasında keçirilib.

İkimərhələli turnirdə iştirak edən 45 idmançıdan 17-i ikinci tura vəsiqə qazanıb. Ən güclülərin mübarizəsində 5 çəki kateqoriyası üzrə qaliblərə münsiflər tərəfindən medal, diplom və qiymətli hədiyyələr təqdim olunub.

Turniri İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Aydın Həşimov idarə edib.

*Teymur Əlizadə*

# Narkotacirlərə daha bir zərbə

**İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə göndərilən külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı polis əməkdaşları tərəfindən növbəti dəfə uğurla alınıb.**



Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində Abşeron rayon sakini Namiq Məmmədov narkotiklərin qanunsuz dövriyyəsini təşkil etdiyi üçün saxlanılıb. Onun avtomobilinə və üzərinə baxış zamanı 50 kiloqram, o cümlədən 28 kiloqram heroin və 22 kiloqram psixotrop maddə metamfetamin aşkar edilərək götürülüb. N.Məmmədov narkotik vasitələri İran vətəndaşı, şəxsiyyəti istintaqla araşdırılan "Hadı" adlı tanışının vasitəsilə Qaradağ rayonunda gizlədilən yerdən paytaxt ərazisində müxtəlif ünvanlara çatdırıb pul qazanmaq məqsədilə əldə etdiyini bildirib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. Əməliyyat tədbirləri davam etdirilir.

Sonuncu əməliyyat zamanı İranda yaşayan və milli genefondumuzun məhv edilməsi üçün narkotikləri qaçaqmalçılıq yolu ilə ölkəyə göndərməyə çalışan narkotacirlərin daxildəki dayaqlarına daha bir zərbə endirilib.

*Anar Qafarov,*
*polis mayoru*

## Güclülər sınağa çəkilib



Bu günlərdə DİN-in İdman Cəmiyyətində daxili işlər orqanları əməkdaşları arasında ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş cüdo üzrə çempionat keçirilib.

DİN-in İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin rəisi, polis polkovniki Munir Orucovun "Polis"ə verdiyi məlumata görə 8 komanda arasında Əlahiddə Çevik Polis Alayı I, Daxili Qoşunlar II, Sumqayıt Şəhər Polis İdarəsinin komandası isə III yeri tutub.

Şəxsi birincilikdə isə 66, 73, 81, 90, 100 və 100+ çəki dərəcələrində fərqli komandaların üzvlərindən 23 nəfər mükafatçılar sırasında olub.

*Ruslan Vəliyev*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik